Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 11-12 (7532-7533) ✲ 1933-cü ildən nəşr olunur ✲ Bazar ertəsi, 4 mart 2019-cu il. ✲ news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***27 fevral***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Respublikasının Prezidenti Salome Zurabişvili ilə təkbətək və geniş tərkibdə görüşü olub. Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

***26 fevral***

Ölkə başçısı İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyənin inkişafı naminə ona yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb. Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

* * *

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.

* * *

Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

***25 fevral***

Dövlət başçısı İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib.

***21 fevral***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.

* * *

Ölkə Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

# XX əsrin ən böyük faciəsi

## İlham ƏLİYEV: *"Xocalı faciəsi xalqımızın sağalmaz dərdidir, soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir."*

## Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev yürüşdə iştirak edib

Xocalı soyqırımının ildönümü ilə əlaqədar on minlərlə insan "Ana harayı" abidəsini ziyarət edir.

Azərbaycanın müasir tarixinin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da on minlərlə insan faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış "Ana harayı" abidəsini ziyarət edir.

Abidə önündən keçən insanların AZƏRTAC-a müsahibələrində bu dəhşətli cinayətin təşkilatçılarına və icraçılarına dərin nifrət hissi ilə yanaşı, həm də onların gec-tez öz layiqli cəzalarını alacaqlarına inam ifadə olunur.





Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi qətliamı bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədi daşıyan izdihamlı yürüş, eyni zamanda, onu göstərir ki, xalqımız bu faciəni heç vaxt unutmayacaq.

Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda keçirilən ümumxalq yürüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Xatırladaq ki, aylarla mühasirədə saxlanılan Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni faşistləri və onların havadarları tərəfindən yerlə-yeksan edildi. Şəhərin dinc əhalisinə amansızlıqla divan tutuldu: 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla 613 nəfər qətlə yetirildi, 1275 nəfər girov götürüldü. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. Girov götürülənlərdən 197-sinin taleyi hələ də məlum deyil.

Xalqımız əmindir ki, bu qanlı cinayəti törədənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq, işğal altındakı torpaqlarımız düşməndən azad ediləcək.